# Ekoloji terrora məruz qalmış Qarabağ təbiəti dirçəldilir

**_Ermənistan 30 il ərzində işğal altında saxladığı ərazilərimizdə şəhər və kəndləri xarabalığa çevirməklə, maddi-mədəniyyət abidələri yer üzündən silməklə, təhqir etməklə bərabər, həm də yeraltı-yerüstü sərvətlərimizi– mineral su mənbələrini, meşə fondunu (246,217 hektar meşə sahəsi), 152 dövlət təbiət abidəsini, 5 ədəd geoloji obyekti və 155 növ faydalı qazıntı yatağını talayıb._**





Düşmən Zəngilan, Ağdam, Kəlbəcər, Qubadlı və digər rayonlarda qiymətli ağac növlərini qazanc götürmək məqsədilə məhv edib, yarımfabrikat kimi xarici ölkələrə satıb. Bir fakta diqqət yetirmək lazımdır ki, işğalın son illərində Ermənistanın Qərb ölkələrinə məxsus şirkətlərin köməyilə meşəçilik sahəsində istehsalı 10 dəfə artıb. Aydındır ki, bu göstərici Azərbaycan meşələrinin qırılması hesabına reallaşıb.

Ümumi sahəsi 8 min hektardan çox olan palıd, ardıc, fıstıq, vələs, şam, göyrüc və qozdan ibarət qiymətli və çoxillik sıx meşələrdən ibarət bənzərsiz bir ekosistemin məhv edilməsi endemik biomüxtəlifliyə ən ağır zərbə olub. Bununla da Ermənistan qoşulduğu ekologiya və ətraf mühitlə bağlı beynəlxalq konvensiyaları, o cümlədən, "Ətraf mühitin dəyişdirilməsi üsullarının hərbi və ya hər hansı başqa düşmənsayağı istifadəsinin qadağan edilməsi" haqqında BMT konvensiyasını pozub.

Flora və faunanın ən qiymətli ağacları ilə zəngin olan Qarabağ meşələri vəhşicəsinə qırılıb, tar-mar edilib, xaricə daşınıb. Yaşıllıq zənginliyinə öyrəşmiş quşlar, heyvanlar bu yerlərdən perik düşüb. Təbiətin müvazinəti, balansı pozulub, torpağın erroziyası başlanıb.

Erməni faşistlərinin işğal etdikləri ərazilərdə törətdikləri bu vəhşilik , bu ekoloji terror barədə dəfələrlə həyəcan təbili çalınsa da, beynəlxalq təşkilatlar qarşısında məsələlər qaldırılsa da, heç bir nəticə verməyib. Onu da bildirim ki, erməni işğalçılarının tapdağı altında qalmış 43 min hektar sahəsi olan xüsusi mühafizə olunan təbiət ərazilərində - Bəsitçay və Qaragöl dövlət təbiət qoruqlarında, Arazboyu, Laçın, Qubadlı və Daşaltı dövlət təbiət yasaqlıqlarında "Azərbaycan Respublikasının Qırmızı Kitabı"na daxil edilmiş 24 fauna və 69 flora növü qorunurdu ki, bunların da əksəriyyəti artıq məhv edilib.

Ermənistanın ölkəmizə qarşı ekoloji terroru bununla bitməyib. Düşmən 1999-cu ildən başlayaraq işğal olunmuş ərazilərdə və həmin sahələrə yaxın torpaqlarda yanğınlar törədib. Nəticədə geniş miqyasda həm torpaq qatı, həm də fauna və flora növləri məhv olub. Belə ki, 2006-cı ildə 63414 hektar, 2007-ci ildə 31097 hektar, 2008-ci ildə 380 hektar, 2009-cu ildə 250 hektar ərazi qəsbkar tərəfindən yandırılıb.

Bəs işğaldan azad olunan ərazilərin ekoloji tarazlığını bərpa etmək üçün nə etmək lazımdır? Ekologiya və Təbii Sərvətlər naziri Muxtar Babayev bu suala aydınlıq gətirir: "Düşməndən təmizlənən ərazilərdə 460 növdən çox yabanı ağac və kol bitkiləri bitir. Bunlardan 70-i dünyanın heç bir yerində təbii halda nəzərə çarpmayan endemik bitkilərdir. İşğal zamanı Qarabağ və ətraf rayonların florası ilə bağlı vəziyyət barədə hələlik geniş məlumat yoxdur. Bunu nəzərə alaraq, həmin ərazilərdə nadir və nəsli kəsilməkdə olan flora növlərinin araşdırılmasına başlanılacaq. Bu məqsədlə Azərbaycan Respublikasının "Qırmızı Kitabı"nın III nəşrinin hazırlanması və çapı planlaşdırılır".

Nazirin bildirdiyinə görə, xüsusi mühafizə olunan təbiət ərazilərimizdən Bəsitçay və Qaragöl dövlət təbiət qoruqları, həmçinin Laçın, Daşaltı və Arazboyu yasaqlıqlarda biomüxtəlifliyin mühafizəsi nəzarətsiz qaldığından 30 il ərzində mənfur düşmənin hərbi-siyasi rejiminin iqtisadi fəaliyyəti nəticəsində flora və fauna vandalcasına istismar olunub. Erməni faşizmi tərəfindən Zəngilan rayonunun ərazisində adı Azərbaycanın "Qırmızı Kitabı"na yazılmış Şərq çinarlarını – bu nadir təbiət incilərini qorumaq məqsədilə 107 hektarlıq sahədə yaradılan Bəsitçay Dövlət Təbiət Qoruğu da məhv edilib. Laçın rayonu ərazisində dəniz səviyyəsindən 2650-2700 metr hündürlükdə yerləşən Qaragöl Dövlət Təbiət Qoruğunun bitki örtüyü sistemsiz şəkildə daim otarılmaqla korlanıb. Laçın Dövlət Təbiət Yasaqlığındakı məməlilər (cüyür, qayakeçisi, çöl donuzu) və quşlar (turac, kəklik) da işğal dövründə sıradan çıxarılıb. Şuşa şəhərinin ətrafında yaradılan Daşaltı Dövlət Təbiət Yasaqlığı isə bir vaxtlar Azərbaycanın ən səfalı və füsunkar təbiəti, tarixi abidələri ilə tanınıb. Burada zəngin meşə, kol və ot bitkilərini qorumaq, etalon ərazi kimi saxlamaq əvəzinə, təbii sərvətlərə dərin yaralar vurulub. Tuqay meşələrinin qorunması və bərpası məqsədi daşıyan Arazboyu Dövlət Təbiət Yasaqlığı da, təəssüf ki, erməni faşizminin qurbanı olub.

İşğaldan azad olunan ərazilərimizdə biomüxtəlifliyin mühafizəsi üçün xüsusi mühafizə olunan təbiət ərazilərimizin (qoruq və yasaqlıqlar) bərpası, həmçinin ekoturizmin inkişafı baxımından yeni kateqoriyalı milli parkın (və ya parkların) yaradılması gündəmdə olan məsələdir.

Topxana meşəsinin qadağan olunmuş ağ fosforla məhv edilməsi, Kəlbəcərdə ağacların kəsilməsi, meşələrin yandırılması və ətraf mühitə qəsdən zərər verilməsi təbiətə qarşı ən ağır cinayətlərdir. Bu barbarlıq, vəhşilik yayılan foto və videolarda daha aydın nəzərə çarpır. Həmin ekoloji cinayətləri illərlə "Azərkosmos"dan alınan foto faktlar da təsdiqləyir. Eyni zamanda, yaşıllıqlara, meşə sahələrinə, bölgənin biomüxtəlifliyinə qarşı törədilən soyqırımı yaradılmış əməliyyat qrupunda təmsil olunan Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları tərəfindən keçirilən monitorinqlərin nəticələrindən də aydın görünür.

Təbiətin məhv edilməsinə, azərbaycanlılara nifrət və düşmənçiliyin bu cür vəhşi formada ifadəsinə son qoyulması və ziyanların hesablanması üçün beynəlxalq müşahidə və qiymətləndirmə qruplarının Azərbaycana dəvət olunması qərara alınıb. Ekoloji terror faktlarına qiymət verilməsi üçün səyləri davam etdirməklə yanaşı, düşməndən təmizlənən ərazilərdə hazırda ekoloji tarazlığın bərpası istiqamətində müxtəlif növ tinglərin əkilməsinə başlanılıb.

Topxana meşəsi Şuşanın qədim tarixə malik nadir təbiət incisidir. Ərazisindəki torpaqların 20 faizini əhatə edən bu meşə vaxtı ilə təbiət möcüzəsini xatırladırdı. Ermənilər işğal dövründə buranı da talayaraq məhv ediblər. Bu gün qədim Şuşa, Topxana meşəsində ağacəkmə kampaniyası zamanı 3 hektar ərazidə dağdağan, göyruş, saqqız ağacı, qarağac əkilib və əraziyə 100 kiloqram palıd toxumu səpilib.

Qarabağ və Zəngəzurun təbiəti işğaldan azad ediləndən sonra müzəffər Prezident, Ali Baş Komandan İlham Əliyevin iştirakı ilə 2021-ci ilin fevral ayında Zəngilan rayonu ərazisində Bəsitçaya iki min ədəd körpə kür qızıl balıqları və çay qızılxallı forelləri, may ayında isə Qubadlı rayonu ərazisində Həkəri çayına min ədəd çay qızılxallı forelləri buraxılıb.

İşğaldan azad olunan ərazilərdə çirklənmə müxtəlif istiqamətlərdə baş verib. Əsas istiqamətlərdən biri Kəlbəcər rayonu ərazisində və Tərtər çayının hövzəsində yerləşən Söyüdlü – Zod qızıl yatağının düzgün istismar edilməməsi nəticəsində çayın çirklənməsi və içməli su ehtiyatlarına vurulan ziyandır. Həmin yataqdan qızıl çıxarılan zaman Tərtər çayının suları müxtəlif ağır metallar və toksik maddələrlə çirkləndirilib. Bundan başqa, digər çaylarda da çirklənmə müşahidə olunur. Məsələn, Zəngilan ərazisindən keçən Bazarçay və Oxçuçay da Ermənistan ərazisindən daxil olur və onlar da ağır metallar və toksik maddələrlə zəhərlənib.

Azərbaycanın işğal olunmuş ərazilərində ekoloji əhəmiyyətə malik bir sıra göllər–Kəlbəcər və Laçın rayonlarının yaylaqlarında Böyük Alagöl, Kiçik Alagöl, Zalxagöl, Qaragöl, Canlıgöl, İşıqlı Qaragöl və Tərtər rayon ərazisində (Tərtərin qolu olan Torağayçay) şirin su ehtiyatları da böyük antropogen təsirə məruz qalıb.

Ümumi su tutumu 560 milyon kubmetr, bəndinin hündürlüyü 125 metr olan Sərsəng su anbarı Tərtər çayı üzərində 1976-cı ildə inşa edilərək işğala qədər 79 min hektar əkin sahəsini suvarmağa imkan verirdi. Bu su anbarının taleyi daim təhlükə altında olub. Onun iş rejimini mütəmadi dəyişdirən işğalçı yay aylarında suyun verilməsini, demək olar ki, dayandırıb, qış aylarında isə əksinə, buraxıb. Nəticədə yeddi rayonun təsərrüfatına ciddi ziyan dəyib.

İşğaldakı ərazilərdən keçən təbii su mənbələrimiz də Ermənistan tərəfindən həddindən artıq çirklənməyə məruz qalıb. Araz və Kür çaylarının qolları olan Oxçuçay və Ağstafaçayın Ermənistan tərəfindən ən ağır formada çirkləndirilməsi nəticəsində sözügedən çaylarda canlı aləmin yaşayışı üçün böyük təhlükə yaranıb.

Azərbaycanın yerüstü su ehtiyatlarının 70 faizi qonşu ölkələrdə formalaşıb. Oxçuçay Ermənistan ərazisində daim kəskin çirklənməyə məruz qalıb. Dağ-mədən sənayesinin tullantıları ilə həddsiz dərəcədə çirkləndirilən bu su mənbəyi uzun illər ərzində sanki sənaye tullantılarının kollektoru rolunu oynayıb.

Oxçuçay Cənubi Qafqazın ikinci böyük çayı olan Araz çayına tökülür. Onun çirklənməsi buradakı su ehtiyatlarının keyfiyyətinə birbaşa təsir edir. Kür çayının ən böyük sağ qolu olan Araz çayı respublikamızın əkin sahələrinin suvarılmasında həlledici rol oynayır.

Bir sözlə, işğalçı göl və çaylar vasitəsilə ekoloji terror törədib. Bununla da Azərbaycan ərazisindən keçən Araz çayının 43 kilometr hissəsində mikroflora və mikrofaunanı tamamilə məhv edib.

Göründüyü kimi, Ermənistanın Azərbaycan Respublikasına qarşı hərbi təcavüzü insan hüquqlarının və çoxsaylı beynəlxalq hüquq normalarının pozulması, sosial-iqtisadi fəsadlar və mədəni irsə vurulan ziyanla yanaşı, misli görünməmiş ekoloji terror, təbii sərvətlərin genişmiqyaslı və uzunmüddətli talanı ilə nəticələnib.

Ərazilərin 30 ilə yaxın işğal altında qaldığı müddət ərzində tarixi torpaqlarımızda təbiətə, bioloji müxtəlifliyə və su hövzələrinə qarşı ciddi ekoloji fəsadlar törədilib. Azərbaycanın "Qırmızı Kitabı"na və Beynəlxalq Təbiəti Mühafizə İttifaqının "Qırmızı Siyahısı"na daxil edilmiş nadir təbiət inciləri məhv edilib, flora və faunaya külli miqdarda ziyan vurulub. Ətraf mühitin fiziki və kimyəvi çirklənməyə məruz qalması bütövlükdə regionda ekoloji tarazlığın pozulmasına gətirib çıxarıb.

İşğaldan azad edilmiş ərazilərə böyük qayıdış çərçivəsində qarşıda duran əsas vəzifələrdən biri də, məhz həmin ərazilərdə təbii və keyfiyyətli ekosistemin, bioloji müxtəlifliyin, habelə nadir və itməkdə olan bitki növlərinin bərpa edilərək sağlamlaşdırılmasıdır. Bu ərazilərdə müasir yanaşmaların tətbiqi əsasında unikal meşə fondunun və mühafizə olunan təbiət komplekslərinin fəaliyyətinin bərpa edilməsi bütövlükdə regionun "yaşıl zona"ya çevrilməsinə şərait yaradacaqdır.

Artıq işğaldan azad olunan ərazilərdə ətraf mühitin sağlamlaşdırılması və təbii sərvətlərdən dayanıqlı istifadənin təmin edilməsi, xüsusi mühafizə olunan təbiət əraziləri şəbəkəsinin, nadir təbiət komplekslərinin və obyektlərinin təbii vəziyyətdə qorunub saxlanılması istiqamətində genişmiqyaslı tədbirlərə başlanılıb.

Azərbaycanın Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilanın inzibati ərazisində 107 hektar sahədə yerləşən Bəsitçay Dövlət Təbiət Qoruğunun fəaliyyətinin bərpa edilməsi ilə bağlı Prezident İlham Əliyevin 20 oktyabr 2021-ci il tarixli sərəncam imzalaması da bunun bariz ifadəsidir.

Vaxtı ilə güllə səsi eşidilən Qarabağdan indi hər gün xoş xəbər alırıq. Artıq bu ərazi böyük tikinti meydançasına çevrilib. Təbiətimiz də daha rahat nəfəs alır. Parklar, qoruqlar bərpa olunur. Məhsuldar torpaqlar minalardan təmizlənir. Çirkləndirilmiş çaylar, göllər durulur. Bütün bunlar isə Qarabağın ekoloji həyatını daha da canlandırır, zənginləşdirir.

***Bəxtiyar HÜSEYNOV,***
***Azərbaycan Yazıçılar Birliyinin üzvü, ekoloq-jurnalist***